# Azərbaycançılıq qanımızda, canımızda, nəfəsimizdədir...

**"Vətən uzaqda deyil"** rubrikasında bu dəfə Azərbaycanı sərhədlərimizdən kənarda layiqincə təmsil edən gənclərimizdən söz açmaq istəyirik. Lobbiçilik işi ilə məşğul olan təşkilatlar, ictimai birliklər, ayrı-ayrı siyasi xadimlərlə yanaşı, bu vacib, müqəddəs missiyanın fərdi daşıyıcıları da var ki, yüksək məsuliyyət və vətənpərvərliklə könüllü fəaliyyətləri xalqımız və dövlətimiz tərəfindən də təqdir olunur. Haqqında danışacağımız **Mahir** və **Mətanət** də belə gənclərimizdəndir...

**Qurbanov Mahir Tahir oğlu** 1990-cı il fevralın 2-də Mingəçevir şəhərində doğulub. Barselona Dövlət Universitetinin siyasi təhlil ixtisası üzrə magistr məzunudur. İllərdir ki, Azərbaycan lobbiçilik prosesi üzrə beynəlxalq layihələrin həyata keçirilməsində bilavasitə öz ideyaları ilə iştirak edir. İspan dili üzrə mütəxəssis, tərcüməçidir. 2011-ci ildə cənab Prezident İlham Əliyevin rəsmi dövlət görüşlərinə iki dəfə ispan dili üzrə tərcüməçi kimi cəlb olunub. İspaniyada təhsil aldığı illərdə ölkənin "Mollet del valles" radiosunda erməni siyasətçisi ilə Qarabağ həqiqətləri və xüsusən də Xocalı soyqırımı mövzusunda debatı zamanı rəqib studiyanı tərk etmək məcburiyyətində qalıb. İspandilli ölkələrin bir çox kütləvi informasiya vasitələrində Qarabağla bağlı çıxışları indi də davam edir.

**Quliyeva Mətanət Vahid qızı** 1989-cu il iyulun 17-də Ağdamın Mərzili kəndində anadan olub. 1993-cü ildən bütün ailə üzvləri ilə birgə ata-baba torpaqlarından məcburi köçkün düşmüşdür. Azərbaycan Dillər Universitetinin məzunudur. Təhsilini bitirdikdən sonra İdman və Gənclər Nazirliyində, Azərbaycan Televiziyasında, müxtəlif təhsil ocaqlarında çalışıb. Hazırda Avropada magistr dərəcəsi almaq üçün hazırlaşır.

...Bütün bu illər ərzində Mahir Qurbanov və Mətanət Quliyeva mütəmadi şəkildə "Azərbaycan-Latın Amerika gənclərinin dostluğu" İctimai Birliyinin təsisçiləri kimi ölkəmizi tanıtmaq, Qarabağ müharibəsi haqqında doğru-düzgün məlumatları yaymar məqsədilə beynəlxalq layihələrdə iştirak edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa çalışırlar.



Gənclər lap yaxınlarda Moldovadan qayıdıblar. Təxminən bir aya qədər sürən səfər "Mədəniyyətlərarası dialoq. Azərbaycan-İspaniya-Moldova əlaqələri" layihəsi çərçivəsində həyata keçirilib.

**– Nə üçün Moldova?**

**M.Qurbanov:** - Layihəmizin bir neçə məqsədi var: Moldovada yaşayan ispandilli icmaya Azərbaycanı yaxşı tanıtmaq, bu ölkədə yaşayıb fəaliyyət göstərən həmyerlilərimizlə gələcək layihələrdə birgə çalışmaq, keçmiş sovet məkanında Vətənimizlə bağlı ispan dilində layihələr reallaşdıraraq Azərbaycan mövzusuna ispan dünyasını cəlb etmək...

**M.Vahidqızı:** - Sözsüz ki, bütün bu layihələrin ideya kimi yaranması və baş tutması cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məqsədyönlü fəaliyyətlərindən qaynaqlanır. Çıxışlarımız zamanı biz çoxsaylı mövzulara toxunduq. Təhsil və turizm əsas prioritetlərdən oldu.

**– Bildiyimizə görə, lobbiçilik müstəvisində sizin könüllü fərdi fəaliyyətiniz ilk addım kimi qiymətləndirilir.**

**M.Q.** - Tamamilə doğrudur, ilk təcrübə olduğu üçün biz layihənin bütün maddi və mənəvi məsuliyyətini könüllü şəkildə öz üzərimizə götürdük. Uğurlu olacağı təqdirdə gələcəkdə daha geniş imkanlarla işimizi davam etdirə bilərik.

**– Azərbaycan-İspaniya-Moldova əlaqələrində hansı prioritet istiqamətləri göstərə bilərsiniz?**



**M.Q.** - Düşünürəm ki, hər üç dövlətin strateji və iqtisadi əməkdaşlığı üçün böyük imkanlar mövcuddur. Bu əlaqələr həm Moldova, həm İspaniya, həm də Azərbaycanın iqtisadi və mədəni potensialına xeyli fayda verə bilər. Təbii ki, bu istiqamətdə hər üç dövlət arasında müxtəlif sahələrdə layihələr təşkil olunaraq illik biznes planlar qurulur, amma sosial layihələrin də çox böyük əhəmiyyəti var.

**M.V.** - Əlaqələrin inkişafında hər üç millətin bir-birinin dilini bilməsi, ölkələr arasında gedi-gəliş, yüksək mədəni əməkdaşlıq önə çəkilməlidir.

**M.Q.** - Layihəmizi Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində fəaliyyət göstərən Migel De Servantes Saavedra adına Moldova-ispan-rumın liseyi ilə birgə əməkdaşlıq əsasında həyata keçirdik. Tədbirimizin açılışı Azərbaycan və Moldova respublikalarının dövlət himnləri ilə reallaşdı. Liseyin direktoru xanım Rodika Postu Moldova-Azərbaycan dostluq əlaqələri haqqında danışdı. Liseyin ispan dili müəllimi Leonid Koval Azərbaycanın regionda strateji əhəmiyyət daşıdığını vurğuladı.

İştirakçılara Azərbaycanın təbiətini, qədim tarixini və mədəniyyətini əks etdirən video-çarx nümayiş etdirildi. Mərasimin sonunda gələcəkdə Azərbaycanda fəaliyyət göstərəcəyi nəzərdə tutulan Fran Rivera və Migel De Servantes Saavedra liseyləri arasında əməkdaşlıq memorandumu imzalandı.

**M.V.** - Biz eyni zamanda Moldovanın Sputink kanalına dəvət edildik. Canlı yayımda ümummilli lider Heydər Əliyevin bütün azərbaycanlılara miras qoyduğu müstəqil Azərbaycanımızın davamçısı cənab İlham Əliyevin demokratik siyasəti, günü-gündən inkişaf edən respublikamız və heç vaxt unutmayacağımız, uğrunda hər zaman mübarizə aparacağımız Qarabağ, Xocalı soyqırımı haqqında Moldova tamaşaçılarına geniş məlumat verdik.

**M.Q.** - Layihəmizin yekununda Moldova respublikasının parlamentində millət vəkilləriylə görüşdə də Respublikamızla bağlı geniş çıxışlar etdik. Millət vəkili Lilian Karp və digər deputatlar Dəyirmi masa arxasında Qarabağ həqiqətləri və Xocalı soyqırımı ilə bağlı söhbətimiz zamanı Moldova Respublikasının hər zaman Azərbaycanı dəstəklədiyini xüsusi vurğuladılar.



**M.V.** - Millət vəkili Lilian Karpa milli xalçamızı hədiyyə edərkən "bu günə qədər qəbul etdiyim ən dəyərli hədiyyədir" söyləməsi bizi qürurlandırdı.

**M.Q.** - Səfərimizin son günlərində Moldovada yaşayan fəal Azərbaycan diasporası ilə görüş həyata keçirdik.

**– Deyəsən, ilk dəfə lobbiçilik məqsədilə ispan dilində qısametrajlı film çəkildi?**

**M.Q.** - Bəhs etdiyiniz qısametrajlı filmin əsas məqsədi ispandilli dövlətlərə Azərbaycanın qüdrətini göstərmək, Ermənistanın işğalçı siyasətini ispan dilində izah etməkdir. Film xaricdə yaşayıb milli maraqlarımızı qoruyan həmvətənlərimizə həsr olunub. Bir daha vurğulamaq istərdik ki, ispan dilində belə bir film ölkəmizdə ilk dəfə çəkilir.

**M.V.** - Milli maraqlarımızı qorumaq və müasir Azərbaycanın lobbiçilik məktəbinin filminin gələcəkdə davamı olmalıdır.

**– Növbəti layihələr üçün artıq yeni planlarınız, yəqin ki, yox deyildir...**

**– M.Q.** – Bu istiqamətdə planlarımız böyükdür. Biz artıq vacib və müqəddəs yola çıxmışıq... Dayanmaq, ya da geri dönmək fikrimiz yoxdur və olmayacaq. Azərbaycançılıq ideologiyasını yaşatmaq, inkişaf etdirmək və təbliği yolunda var-gücümüzü əsirgəməyəcəyik! Biz fəxr edirik ki, azərbaycanlıyıq!

**– M.V.** – Bəli, könüllü olaraq qarşıya qoyduğumuz məqsədlər uğrunda vardığımız bu şərəfli yol mütləq davam etməlidir. Azərbaycançılıq qanımızda, canımızda, nəfəsimizdədir.

**– Gələcək işlərinizdə sizə uğurlar arzu edirik.** ❖

**Söhbəti yazdı: Zöhrə Əliyeva**